## ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ VƏ İZAHLI QEYDLƏR

Yeni Azərbaycan Partiyası (bundan sonra mətndə "Partiya") Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət və azad vətəndaş cəmiyyəti qurmaq məqsədi ilə irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən asılı olmayaraq Azərbaycan vətəndaşlarını ümumi siyasi ideya və məqsəd ətrafında birləşdirən, ölkənin siyasi həyatında iştirak edən qeyri-kommersiya hüquqi şəxsdir.

Partiya öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu, digər qanunvericilik aktları və öz Nizamnaməsi əsasında həyata keçirir.

Birləşmək (assosiasiyalar) azadlığı, könüllülük, partiya üzvlərinin hüquq bərabərliyi, özünüidarə, qanunçuluq və aşkarlıq Partiyanın fəaliyyət prinsipləridir.

Partiyaya üzvlük fərdidir.

Yeni Azərbaycan Partiyası 18 dekabr 1992-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçmişdir. 2025-ci il dekabr ayının 31-nə partiya üzvlərinin sayı 755629 nəfər, 2025-ci il ərzində partiyanın işçilərinin orta sayı isə 792 nəfər təşkil etmişdir.

Partiya Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyata alınmışdır (VÖEN 1500150281).

Partiyanın hüquqi ünvanı - AZ1025, Bakı şəhəri, Xətai rayonu, S.Senyuşkin küçəsi 26.

## ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ

Uçot siyasətinin bu maliyyə hesabatının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir.

### 1. Maliyyə hesabatının tərtib olunmasının ümumi əsasları

Partiyanın maliyyə hesabatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 30 avqust tarixli 238 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyalarda mühasibat uçotunun aparılması Qaydaları"na və 2023-cü il 3 avqust tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası"na uyğun tərtib edilmişdir.

Partiyanın maliyyə hesabatının tərtib edilməsində Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş "Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və yerli təşkilat Aparatları tərəfindən mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün qəbul edilən konkret prinsiplər, əsaslar, qaydalar və metodların məcmusunu əks etdirən, eləcə də maliyyə-təsərrüfat əməliyyatları üzrə bir sıra normativləri müəyyən edən Uçot Siyasəti"nə riayət edilmişdir.

Bu maliyyə hesabatında Partiyanın Mərkəzi Aparatının və 84 rayon (şəhər) təşkilatının, həmçinin "Yeni Azərbaycan" qəzetinin maliyyə göstəriciləri əksini tapmışdır.

### 2. Valyutaların yenidən hesablanması

*a) Funksional valyuta və hesabat valyutası*

Maliyyə hesabatında bütün məbləğlər funksional valyuta olan Azərbaycan Respublikası manatı ilə göstərilir.

*b) Əməliyyatlar və qalıqlar*

Xarici valyuta ilə əməliyyatlar əməliyyat tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir.

Xarici valyutada olan pul vəsaitləri hesabat tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir.

## 3. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər təsərrüfat fəaliyyətində bir ildən artıq müddətdə istifadə edilən, gəlir gətirən və fiziki formaya malik olmayan, müəyyən oluna bilən qeyri-monetar aktivlərdir.

Məhdud istifadə müddətli qeyri-maddi aktivlərə ildə bir dəfə olmaqla düzxətt metodu əsasında amortizasiya hesablanması həyata keçirilir. Amortizasiyanın düzxətt metodu əsasında illik amortizasiya normalarını qeyri-maddi aktivlərin ilkin dəyərinə vurmaqla amortizasiya məbləğləri müəyyən edilir. Məhdud istifadə müddətli qeyri-maddi aktivlər üzrə amortizasiya norması həmin qeyri-maddi aktivlərin faydalı istifadə müddətinə görə aşağıdakı kimi müəyyən edilir:

*Amortizasiya norması (%/il) = 100% / faydalı istifadə müddəti (il)*

## 4. Torpaq, tikili və avadanlıqlar

Torpaq, tikili və avadanlıqlar inzibati məqsədlər və icarəyə verilmək üçün istifadə edilən və istifadə müddəti bir hesabat dövründən artıq olan maddi qiymətlilərdir.

Partiyanın balansında kommersiya məqsədli torpaq sahəsi yoxdur.

Tikili və avadanlıqlar ilkin dəyərlərindən düzxətt metodu ilə amortizasiya ayırmaları çıxılmaqla maliyyə hesabatında əks etdirilir. İlkin dəyərə bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərclər daxil edilir.

Sonrakı xərclər aşağıdakı hallarda aktivlərin dəyərinə aid edilir və ya ayrıca aktiv kimi tanınır: çəkilmiş xərc nəticəsində tikili və avadanlıqların ilkin texniki göstəriciləri ilə müqayisədə istifadə müddəti və ya keyfiyyəti artırılırsa (təkmilləşdirilmə, müasirləşdirilmə, yeniləşmə) və dəyəri etibarlı şəkildə müəyyən edilə bilər. Digər təmir xərcləri, servis xidmətləri, istismarla bağlı xərclər isə tikili və avadanlıqların dəyərinə daxil edilməyərək dövrün xərclərinə aid edilir.

Partiyanın uçot siyasətinə əsasən torpaq, tikili və avadanlıqlara amortizasiya hesablanması ildə bir dəfə olmaqla düzxətt metodu əsasında həyata keçirilir. Amortizasiya məbləğləri aşağıda qeyd edilmiş illik amortizasiya normaları həmin aktivlərin ilkin dəyərinə vurulmaqla müəyyən edilir.

Tikililər:
- binalar - 1,7%;
- daimi daş və dəmir-beton hasarlar - 3,4%

Nəqliyyat vasitələri - 10,0%;

Maşın və avadanlıqlar:
- ofis texnikası - 11,1%;
- tənzimləyici cihazlar - 11,1%;
- generatorlar - 9,1%;
- liftlər - 4,0%;
- digər maşın və avadanlıqlar - 11,1%;

Sair torpaq, tikili və avadanlıqlar - 11,1%.

Aşağıdakı torpaq, tikili və avadanlıqlar amortizasiya olunmur:
- heykəllər və xatirə lövhələri;
- tam amortizasiya olunmuş tikili və avadanlıqlar:
- tam amortizasiya olunmamış, lakin yararsız hala düşmüş tikili və avadanlıqlar.

- istismarda olmayan (anbarda saxlanılan) avadanlıqlar.

Hesabat ili üzrə hansı ayda əldə edilməsindən və ya istifadəyə verilməsindən asılı olmayaraq tikili və avadanlıqlara həmin il üzrə tam illik əsasla amortizasiya hesablanır. Hesabat ili üzrə hansı ayda xaric edilməsindən və ya silinməsindən asılı olmayaraq tikili və avadanlıqlara həmin il üzrə amortizasiya hesablanmır.

Tikili və avadanlıqların xaricolmasından mənfəət və zərərlər həmin tikili və avadanlıqların satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər "Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat"da əks etdirilir.

## 5. Daşınmaz əmlaka investisiyalar

Daşınmaz əmlaka investisiyalar icarə ödənişlərinin əldə edilməsi və ya kapitalın artırılması məqsədi ilə və ya hər iki məqsəd üçün saxlanılan əmlaklardır.

## 6. Uzunmüddətli debitor borcları

Uzunmüddətli debitor borcları növbəti hesabat tarixindən sonra mövcud olması gözlənilən debitor borclardır.

## 7. Sair uzunmüddətli aktivlər

Partiyanın sair uzunmüddətli aktivlərinə aşağıdakılar daxildir:

- verilmiş uzunmüddətli avanslar;
- sair uzunmüddətli qeyri-maliyyə aktivləri.

## 8. Ehtiyatlar

Ehtiyatlara "Material ehtiyatları", "Hesablanmış məsrəflər" və "Digər ehtiyatlar" daxildir. Ehtiyatların dəyəri maya dəyəri üzrə əks etdirilir. Sərf edilmiş ehtiyatlar üzrə məsrəflər FİFO metodu ilə müəyyən edilir.

## 9. Qısamüddətli debitor borcları

Hesabat tarixindən sonra 12 ay müddətində ləğv olması gözlənilən debitor borclardır.

## 10. Pul vəsaitləri və onların ekvivalentləri

Bu maddədə "Kassa", "Bank hesablaşma hesabları" və "Pul vəsaitlərinin ekvivalentləri" hesablarında hesabat dövrünün əvvəlinə və sonuna olan qalıq pul vəsaitlərinin cəmi göstərilir. Xarici valyuta ilə olan hesablardakı qalıqlar, eləcə də həmin hesablarla aparılmış əməliyyatlar Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks olunur.

## 11. Sair qısamüddətli aktivlər

Sair qısamüddətli aktivlərə "Təhtəlhesab məbləğlər", "Verilmiş qısamüddətli avanslar" və "Digər qısamüddətli aktivlər" daxildir.

## 12. Ehtiyat fondu

"Ehtiyat fondu"na "Yenidən qiymətləndirmə üzrə ehtiyat fondu", "Məzənnə fərqləri üzrə ehtiyat fondu" və "Digər ehtiyat fondları" daxildir.

## 13. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)

"Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" maddəsində "Hesabat dövrü üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)", "Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesablarında hesabat dövrünün əvvəlinə və sonuna uçota alınan ümumiləşdirilmiş məlumatlar üzrə qalıq məbləğlərinin cəmi göstərilir.

Hesabat dövrünün əvvəlində "Hesabat dövrü üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesabının qalığı "Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesabına keçirilir. Cari hesabat dövrü üzrə mənfəət və ya zərər məbləği isə "Ümumi mənfəət" hesabından "Hesabat dövrü üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesabına silinir.

## 14. Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər

Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklərə "Uzunmüddətli bank kreditləri", "İşçilər üçün uzunmüddətli bank kreditləri", "Uzunmüddətli borclar", "Digər uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər" daxildir.

## 15. Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər

Uzunmüddətli qiymətləndirilmiş öhdəliklərə "Uzunmüddətli zəmanət öhdəlikləri", "Digər uzunmüddətli qiymətləndirilmiş öhdəliklər" daxildir.

## 16. Uzunmüddətli kreditor borcları

Uzunmüddətli kreditor borclara "Malsatan və podratçılara uzunmüddətli kreditor borcları" və "Digər uzunmüddətli kreditor borcları" daxildir.

## 17. Sair uzunmüddətli öhdəliklər

Sair uzunmüddətli öhdəliklərə "Alınmış uzunmüddətli avanslar" və "Digər uzunmüddətli öhdəliklər" daxildir.

## 18. Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər

Qısamüddətli faiz xərcləri yaradan öhdəliklərə "Qısamüddətli bank kreditləri", "İşçilər üçün qısamüddətli bank kreditləri", "Qısamüddətli borclar", "Digər qısamüddətli faiz xərcləri yaradan öhdəliklər" daxildir.

## 19. Qısamüddətli qiymətləndirilmiş öhdəliklər

Qısamüddətli qiymətləndirilmiş öhdəliklərə "Qısamüddətli zəmanət öhdəlikləri", "Digər qısamüddətli qiymətləndirilmiş öhdəliklər" daxildir.

## 20. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər

Partiya qeyri-kommersiya təşkilatıdır və yalnız qanunla qadağan olunmayan kommersiya fəaliyyəti göstərdiyi halda əldə edilən gəlirdən Azərbaycan Respublikasının vergi qanunvericiliyinə müvafiq olaraq əlavə dəyər və mənfəət vergisi ödəyicisi olur.

Partiya vergi qanunvericiliyinin müddəalarına uyğun fiziki şəxslər üzrə gəlir vergisini, hüquqi və fiziki şəxslər üzrə ödəmə mənbəyindən tutulan vergiləri, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq məcburi dövlət sosial sığorta haqlarını, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq icbari tibbi sığorta haqlarını, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq işsizlikdən sığorta haqlarını hesablayır və müvafiq qaydada aidiyyəti üzrə ödəyir.

Lakin, partiyanın təsis etdiyi və əsas fəaliyyəti çap şəklində qəzetlərin nəşri və satışı olan "Yeni Azərbaycan" qəzeti kommersiya təşkilatıdır və Azərbaycan Respublikasının vergi qanunvericiliyinə müvafiq olaraq vergi ödəyicisidir.

**Qeyd:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin aşağıda qeyd olunan maddələrinə əsasən "Yeni Azərbaycan" qəzeti media subyekti olduğu üçün;

- *106.1.32. media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlər (o cümlədən reklam gəlirləri), habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən maddi yardımlar – 2023-cü il yanvarın 1-dən ~~3~~ 6 il müddətinə - mənfəət vergisi;*

- *218-1.1.7. media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlər (o cümlədən reklam gəlirləri), habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən maddi yardımlar – 2023-cü il yanvarın 1-dən ~~3~~ 6 il müddətinə- sadələşdirilmiş vergi;*

- *164.1.8-1. media subyektləri (audiovizual media subyektləri istisna olmaqla) tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi, habelə Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə (audiovizual media subyektləri istisna olmaqla) media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi – 2023-cü il yanvarın 1-dən ~~3~~ 6 il müddətinə - əlavə dəyər vergisi ödəməkdən azaddır.*

## 21. Qısamüddətli kreditor borcları

Qısamüddətli kreditor borclara "Malsatan və podratçılara qısamüddətli kreditor borcları" "İşçi heyətinə qısamüddətli kreditor borcları", "İcarə ilə bağlı qısamüddətli kreditor borcları", "Faizlər üzrə qısamüddətli kreditor borcları" və "Digər qısamüddətli kreditor borcları" daxildir.

## 22. Sair qısamüddətli öhdəliklər

Sair qısamüddətli öhdəliklərə "Alınmış qısamüddətli avanslar" və "Digər qısamüddətli öhdəliklər" daxildir.

## 23. Gəlirlər

Gəlirlər əməliyyatların baş verdiyi müvafiq hesabat dövründə tanınaraq, maliyyə hesabatında əks etdirilir. Partiyanın gəlirləri aşağıdakı maddələr üzrə ümumiləşdirilir:

- üzvlük haqqı;
- ianə;
- dövlət maliyyə yardımı;
- çap mediasının təsis edilməsindən, o cümlədən çap mediasının iştirakçısı olmaqdan əldə edilən gəlir;
- ictimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat materiallarının hazırlanması və satışından gəlir;
- mülki hüquq müqavilələri üzrə, o cümlədən əmlakından istifadə və onun satılmasından əldə edilən gəlir;
- hüquq varisliyi və ya vərəsəlik (miras aktivi) yolu ilə əldə edilmiş əmlak;
- qanunla qadağan olunmayan digər gəlirlər;

Partiya üzvlərinin üzvlük haqqı məbləğini Yeni Azərbaycan Partiyasının İdarə Heyəti müəyyən edir.

## 24. Xərclər

Xərclər əməliyyatların baş verdiyi müvafiq hesabat dövründə tanınaraq, maliyyə hesabatında əks etdirilir.

Partiyanın xərcləri aşağıdakı maddələr üzrə ümumiləşdirilir:

- cari işlərə sərf olunan vəsait;
- siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər;
- ictimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər;
- yerli (aşağı) təşkilatlara ödənişlər;
- kreditlər üzrə faizlər;
- fərdi xərclər;
- sair xərclər.

## İZAHLI QEYDLƏR:

### №1 Qeyri-maddi aktivlər:

| | Cəmi | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | proqram təminatları | patentlər | müəllif hüquqları | lisenziyalar | digər qeyri-maddi aktivlər | kapitallaşdırılmış məsrəflər |
| **İlkin dəyər** | | | | | | | |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 34 800,00 | 34 800,00 | - | - | - | - | - |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | - | - | - | - | - | - | - |
| dövrün sonuna | 34 800,00 | 34 800,00 | - | - | - | - | - |
| *Cari hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 34 800,00 | 34 800,00 | - | - | - | - | - |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | 180,00 | 180,00 | - | - | - | - | - |
| dövrün sonuna | 34 620,00 | 34 620,00 | - | - | - | - | - |
| **Yığılmış amortizasiya** | | | | | | | |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 253,30 | 253,30 | - | - | - | - | - |
| dövr ərzində hesablanmış amortizasiya məsrəfləri | 193,33 | 193,33 | - | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | - | - | - | - | - | - | - |
| dövrün sonuna | 446,63 | 446,63 | - | - | - | - | - |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *Cari hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 446,63 | 446,63 | - | - | - | - | - |
| dövr ərzində hesablanmış amortizasiya məsrəfləri | 133,37 | 133,37 | - | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | 180,00 | 180,00 | - | - | - | - | - |
| dövrün sonuna | 400,00 | 400,00 | - | - | - | - | - |
| **Balans dəyəri** | | | | | | | |
| hesabat dövrünün əvvəlinə | 34 353,37 | 34 353,37 | - | - | - | - | - |
| hesabat dövrünün sonuna | 34 220,00 | 34 220,00 | - | - | - | - | - |

## №2 Torpaq, tikili və avadanlıqlar

| | Cəmi | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Torpaq | Tikililər | Nəqliyyat vasitələri | Maşın və avadanlıqlar | Sair | kapitallaşdırılmış məsrəflər |
| **İlkin dəyər** | | | | | | | |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 32 131 312,16 | - | 22 002 830,50 | 5 528 472,25 | 1 893 058,98 | 2 656 476,82 | 50 473,61 |
| dövr ərzində daxil olmuşdur | 8 967 248,92 | - | 6 814 457,88 | - | 735 958,11 | 226 095,72 | 1 190 737,21 |
| dövr ərzində xaric olmuşdur | 1 012 474,771 | - | - | - | 52 152,02 | 75 146,30 | 885 176,45 |
| dövrün sonuna | 40 086 086,31 | - | 28 817 288,38 | 5 528 472,25 | 2 576 865,07 | 2 807 426,24 | 356 034,37 |
| *Cari hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 40 086 086,31 | - | 28 817 288,38 | 5 528 472,25 | 2 576 865,07 | 2 807 426,24 | 356 034,37 |
| dövr ərzində daxil olmuşdur | 23 584 667,56 | - | 21 518 652,33 | 427 442,00 | 473 745,20 | 151 628,81 | 1 013 199,22 |
| dövr ərzində xaric olmuşdur | 4 107 241,04 | - | 3 046 810,13 | 28 500,00 | 70 769,48 | 14 458,61 | 946 702,82 |
| dövrün sonuna | 59 563 512,83 | - | 47 289 130,58 | 5 927 414,25 | 2 979 840,79 | 2 944 596,44 | 422 530,77 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Yığılmış amortizasiya** | | | | | | | |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 6 581 762,76 | - | 3 184 385,08 | 1 176 455,04 | 792 332,71 | 1 428 589,93 | - |
| dövr ərzində hesablanmış amortizasiya məsrəfləri | 1 630 723,42 | - | 547 966,45 | 552 847,23 | 260 547,99 | 269 361,75 | - |
| dövr ərzində xaric olmuşdur | 107 051,95 | - | - | - | 48 877,03 | 58 174,92 | - |
| dövrün sonuna | 8 105 434,23 | - | 3 732 351,53 | 1 729 302,27 | 1 004 003,67 | 1 639 776,76 | - |
| *Cari hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 8 105 434,23 | - | 3 732 351,53 | 1 729 302,27 | 1 004 003,67 | 1 639 776,76 | - |
| dövr ərzində hesablanmış amortizasiya məsrəfləri | 2 023 994,21 | - | 861 925,91 | 592 741,43 | 293 687,18 | 275 639,69 | - |
| dövr ərzində xaric olmuşdur | 1 157 944,83 | - | 1 075 423,63 | 5 700,00 | 63 210,80 | 13 610,40 | - |
| dövrün sonuna | 8 971 483,61 | - | 3 518 853,81 | 2 316 343,70 | 1 234 480,05 | 1 901 806,05 | - |
| **Balans dəyəri** | | | | | | | |
| hesabat dövrünün əvvəlinə | 31 980 652,08 | - | 25 084 936,85 | 3 799 169,98 | 1 572 861,40 | 1 167 649,48 | 356 034,37 |
| hesabat dövrünün sonuna | 50 592 029,22 | - | 43 770 276,77 | 3 611 070,55 | 1 745 360,74 | 1 042 790,39 | 422 530,77 |

## №3 Daşınmaz əmlaka investisiyalar

Partiyanın cari hesabat ilində daşınmaz əmlaka investisiyalar üzrə əməliyyatı olmamışdır.

## №4 Uzunmüddətli debitor borcları

| | Cəmi | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Üzvlər üzrə | Transferlər üzrə | İcarə üzrə | Digər |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | |
| Dövrün əvvəlinə | - | - | - | - | - |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | - | - | - | - | - |
| Dövrün sonuna | - | - | - | - | - |
| *Cari hesabat dövrü üzrə* | | | | | |
| Dövrün əvvəlinə | - | - | - | - | - |
| dövr ərzində daxil olmuşdur | 17 471,05 | 17 471,05 | - | - | - |
| dövr ərzində xaric olmuşdur | - | - | - | - | - |
| Dövrün sonuna | 17 471,05 | 17 471,05 | - | - | - |

## №5 Sair uzunmüddətli aktivlər

| | Cəmi | o cümlədən | | |
|---|---|---|---|---|
| | | Verilmiş avanslar | Uzunmüddətli bitkilər | Sair qeyri-maliyyə aktivləri |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | |
| dövrün əvvəlinə | 1 600,00 | - | - | 1 600,00 |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | - | - | - | - |
| dövrün sonuna | 1 600,00 | - | - | 1 600,00 |
| *Cari hesabat dövrü üzrə* | | | | |

| | | | | |
|---|---|---|---|---|
| dövrün əvvəlinə | 1 600,00 | - | - | 1 600,00 |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | - | - | - | - |
| dövrün sonuna | 1 600,00 | - | - | 1 600,00 |

## №6 Ehtiyatlar

| | |
|---|---|
| *Əvvəlki hesabat dövrü üzrə* | |
| dövrün əvvəlinə | 134 104,16 |
| dövr ərzində daxil olmuşdur | 1 129 099,57 |
| dövr ərzində xaric olmuşdur | 1 152 550,89 |
| dövrün sonuna | 110 652,84 |
| *Cari hesabat dövrü üzrə* | |
| dövrün əvvəlinə | 110 652,84 |
| dövr ərzində daxil olmuşdur | 1 447 266,94 |
| dövr ərzində xaric olmuşdur | 1 439 180,69 |
| dövrün sonuna | 118 739,09 |

## №7 Qısamüddətli debitor borcları

| | Cəmi | o cümlədən | | | | |
|---|---|---|---|---|---|---|
| | | Üzvlər üzrə | Alıcılar və sifarişçilər üzrə | Transferlər üzrə | İcarə üzrə | digər |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | | |
| dövrün əvvəlinə | 92 493,83 | 75 509,19 | 16 175,86 | - | 800,00 | 8,78 |
| dövr ərzində daxil olmuşdur | 34 439 178,87 | 31 387 949,71 | 417 414,06 | - | 26 140,00 | 2 607 675,10 |
| dövr ərzində xaric olmuşdur | 34 424 863,44 | 31 379 074,08 | 411 165,48 | - | 26 940,00 | 2 607 683,88 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| dövrün sonuna | 106 809,26 | 84 384,82 | 22 424,44 | - | - | - |
| *Cari hesabat dövrü üzrə* | | | | | | |
| dövrün əvvəlinə | 106 809,26 | 84 384,82 | 22 424,44 | - | - | - |
| dövr ərzində daxil olmuşdur | 49 580 346,53 | 33 936 224,82 | 12 492 687,93 | - | 22 880,00 | 3 128 553,78 |
| dövr ərzində xaric olmuşdur | 49 601 502,57 | 33 946 175,96 | 12 503 892,83 | - | 22 880,00 | 3 128 553,78 |
| dövrün sonuna | 85 653,22 | 74 433,68 | 11 219,54 | - | - | - |

## №8 Pul vəsaitləri və onların ekvivalentləri

| | Cəmi | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | kassa | cari bank hesablarında | | depozit hesablarda | | digər |
| | | | milli valyuta ilə | xarici valyuta ilə (manat ekvivalentində) | milli valyuta ilə | xarici valyuta ilə (manat ekvivalentində) | |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 30 226 010,60 | 190,00 | 29 995 531,87 | 30 288,73 | 200 000,00 | - | - |
| dövr ərzində daxil olmuşdur | 37 413 863,85 | 300,00 | 34 900 682,49 | 9 881,36 | 1 500 000,00 | - | 1 003 000,00 |
| dövr ərzində xaric olmuşdur | 27 050 283,43 | 490,00 | 26 162 912,18 | 9 881,25 | - | - | 877 000,00 |
| dövrün sonuna | 40 589 591,02 | - | 38 733 302,18 | 30 288,84 | 1 700 000,00 | - | 126 000,00 |
| *Cari hesabat dövrü üzrə* | | | | | | | |
| dövrün əvvəlinə | 40 589 591,02 | - | 38 733 302,18 | 30 288,84 | 1 700 000,00 | - | 126 000,00 |
| dövr ərzində daxil olmuşdur | 60 994 076,37 | - | 50 483 283,44 | 10 792,93 | 10 500 000,00 | - | - |
| dövr ərzində xaric olmuşdur | 39 082 345,89 | - | 38 945 553,30 | 10 792,59 | - | - | 126 000,00 |
| dövrün sonuna | 62 501 321,50 | - | 50 271 032,32 | 30 289,18 | 12 200 000,00 | - | - |

## №9 Sair qısamüddətli aktivlər

| | Cəmi | o cümlədən | | |
|---|---|---|---|---|
| | | Təhtəlhesab məbləğlər | Verilmiş avanslar | digər |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | |
| dövrün əvvəlinə | 32 166,29 | 546,40 | 19 926,19 | 11 693,70 |
| dövr ərzində daxil olmuşdur | 530 132,87 | 69 972,54 | 460 160,30 | 0,03 |
| dövr ərzində xaric olmuşdur | 539 359,53 | 70 168,39 | 457 497,41 | 11 693,73 |
| dövrün sonuna | 22 939,63 | 350,55 | 22 589,08 | - |
| *Cari hesabat dövrü üzrə* | | | | |
| dövrün əvvəlinə | 22 939,63 | 350,55 | 22 589,08 | - |
| dövr ərzində daxil olmuşdur | 682 382,88 | 84 076,86 | 596 678,40 | 1 627,62 |
| dövr ərzində xaric olmuşdur | 689 266,43 | 83 440,71 | 605 825,72 | - |
| dövrün sonuna | 16 056,08 | 986,70 | 13 441,76 | 1 627,62 |

## №10 Ehtiyat fondu

| | |
|---|---|
| *Əvvəlki hesabat dövrü üzrə* | |
| dövrün əvvəlinə | 1 600 000,00 |
| dövr ərzində daxil olmuşdur | 6 727 002,82 |
| dövr ərzində xaric olmuşdur | 175 339,03 |
| dövrün sonuna | 8 151 663,79 |
| *Cari hesabat dövrü üzrə* | |
| dövrün əvvəlinə | 8 151 663,79 |
| dövr ərzində daxil olmuşdur | 21 592 613,45 |
| dövr ərzində xaric olmuşdur | 511 703,18 |
| dövrün sonuna | 29 232 574,06 |

## №11 Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)

| | Cəmi | hesabat dövrü üzrə | keçmiş illər üzrə |
|---|---|---|---|
| *Əvvəlki hesabat dövrü üzrə* | | | |
| dövrün əvvəlinə | 54 395 659,67 | 54 395 659,67 | - |
| dövr ərzində daxil olmuşdur | 10 213 760,18 | 10 213 760,18 | - |
| dövr ərzində xaric olmuşdur | - | - | - |
| dövrün sonuna | 64 609 419,85 | 64 609 419,85 | - |
| *Cari hesabat dövrü üzrə* | | | |
| dövrün əvvəlinə | 64 609 419,85 | 64 609 419,85 | - |
| dövr ərzində daxil olmuşdur | 83 975 892,57 | 19 366 472,72 | 64 609 419,85 |
| dövr ərzində xaric olmuşdur | 66 591 275,45 | 66 591 275,45 | - |
| dövrün sonuna | 81 994 036,97 | 17 384 617,12 | 64 609 419,85 |

**Qeyd:** Partiyanın sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan əmlakının təqdim edilməsindən əldə olunan digər gəlirlərdən (Vergi Məcəlləsinin 13.2.16.14. maddəsi) və əmlak icarəsindən (Vergi Məcəlləsinin 13.2.16.11. maddəsi)" əldə olunan gəlirdən ümumilikdə 1.981.855,60 manat mənfəət vergisi hesablanmış və Partiyanın uçot siyasətinin 8.4.2 Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) maddəsinin tələblərinə əsasən ümumi mənfəət hesabına silinmişdir.

## №12 Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər

| | Cəmi | o cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Uzunmüddətli bank kreditləri | İşçilər üçün uzunmüddətli bank kreditləri | Uzunmüddətli borclar | Digər |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | |
| dövrün əvvəlinə | 6 766,76 | - | - | 6 766,76 | - |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | 6 766,76 | - | - | 6 766,76 | - |
| dövrün sonuna | - | - | - | - | - |
| *Cari hesabat dövrü üzrə* | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| dövrün əvvəlinə | - | - | - | - | - |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | - | - | - | - | - |
| dövrün sonuna | - | - | - | - | - |

## №13 Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər

Partiyanın cari hesabat ilində uzunmüddətli qiymətləndirilmiş öhdəliklər üzrə əməliyyatı olmamışdır.

## №14 Uzunmüddətli kreditor borcları

Partiyanın cari hesabat ilində uzunmüddətli kreditor borcları üzrə əməliyyatı olmamışdır.

## №15 Sair uzunmüddətli öhdəliklər

| | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | alınmış avanslar | digər |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | |
| dövrün əvvəlinə | - | - | - |
| dövr ərzində daxil olmuşdur | 48 438,31 | - | 48 438,31 |
| dövr ərzində xaric olmuşdur | - | - | - |
| dövrün sonuna | 48 438,31 | - | 48 438,31 |
| *Cari hesabat dövrü üzrə* | | | |
| dövrün əvvəlinə | 48 438,31 | - | 48 438,31 |
| dövr ərzində daxil olmuşdur | - | - | - |
| dövr ərzində xaric olmuşdur | 6 798,36 | - | 6 798,36 |
| dövrün sonuna | 41 639,95 | - | 41 639,95 |

## №16 Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər

| | Cəmi | o cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Qısamüddətli bank kreditləri | İşçilər üçün qısamüddətli bank kreditləri | Qısamüddətli borclar | Digər |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | |
| dövrün əvvəlinə | 20 300,28 | - | - | - | 20 300,28 |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | 13 533,52 | - | - | - | 13 533,52 |
| dövrün sonuna | 6 766,76 | - | - | - | 6 766,76 |
| *Cari hesabat dövrü üzrə* | | | | | |
| dövrün əvvəlinə | 6 766,76 | - | - | - | 6 766,76 |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - | - |
| dövr ərzində xaric olmuşdur | 6 766,76 | - | - | - | 6 766,76 |
| dövrün sonuna | - | - | - | - | - |

## №17 Qısamüddətli qiymətləndirilmiş öhdəliklər

Partiyanın cari hesabat ilində qısamüddətli qiymətləndirilmiş öhdəliklər üzrə əməliyyatı olmamışdır.

## №18 Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər

| | Cəmi | o cümlədən | | |
|---|---|---|---|---|
| | | Vergilər üzrə | Sosial, sığorta və təminat üzrə | Digər məcburi ödənişlər üzrə |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | |
| dövrün əvvəlinə | 19 834,87 | - | 17 358,03 | 2 476,84 |
| dövr ərzində daxil olmuşdur | 4 773 859,43 | 1 040,00 | 3 976 135,29 | 796 684,14 |
| dövr ərzində xaric olmuşdur | 4 784 871,12 | 1 040,00 | 3 986 545,16 | 797 285,96 |
| dövrün sonuna | 8 823,18 | - | 6 948,16 | 1 875,02 |
| *Cari hesabat dövrü üzrə* | | | | |
| dövrün əvvəlinə | 8 823,18 | - | 6 948,16 | 1 875,02 |
| dövr ərzində daxil olmuşdur | 7 197 161,19 | 1 981 932,15 | 4 342 655,30 | 872 573,74 |
| dövr ərzində xaric olmuşdur | 5 203 748,38 | 1 076,55 | 4 328 377,65 | 874 294,18 |
| dövrün sonuna | 2 002 235,99 | 1 980 855,60 | 21 225,81 | 154,58 |

## №19 Qısamüddətli kreditor borcları

| | Cəmi | o cümlədən | | | | |
|---|---|---|---|---|---|---|
| | | Malsatan və podratçılar üzrə | İşçi heyəti üzrə | İcarə üzrə | Faizlər üzrə | Digər |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | | | |
| dövrün əvvəlinə | 27 909,22 | 10 046,84 | 15 258,31 | - | - | 2 604,07 |
| dövr ərzində daxil olmuşdur | 21 056 133,15 | 2 608 485,52 | 16 045 376,49 | 823,80 | - | 2 401 447,34 |
| dövr ərzində xaric olmuşdur | 21 069 354,41 | 2 614 791,19 | 16 056 168,69 | 243,36 | - | 2 398 151,17 |
| dövrün sonuna | 14 687,96 | 3 741,17 | 4 466,11 | 580,44 | - | 5 900,24 |
| *Cari hesabat dövrü üzrə* | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| dövrün əvvəlinə | 14 687,96 | 3 741,17 | 4 466,11 | 580,44 | - | 5 900,24 |
| dövr ərzində daxil olmuşdur | 24 207 199,48 | 3 381 673,63 | 17 466 199,32 | 65 296,50 | - | 3 294 030,03 |
| dövr ərzində xaric olmuşdur | 24 132 082,61 | 3 376 811,19 | 17 470 665,43 | 64 716,06 | - | 3 219 889,93 |
| dövrün sonuna | 89 804,83 | 8 603,61 | - | 1 160,88 | - | 80 040,34 |

## №20 Sair qısamüddətli öhdəliklər

| | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | Alınmış avanslar | digər |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | |
| dövrün əvvəlinə | - | - | - |
| dövr ərzində daxil olmuşdur | 24 038,70 | 590,34 | 23 448,36 |
| dövr ərzində xaric olmuşdur | 17 240,34 | 590,34 | 16 650,00 |
| dövrün sonuna | 6 798,36 | - | 6 798,36 |
| *Cari hesabat dövrü üzrə* | | | |
| dövrün əvvəlinə | 6 798,36 | - | 6 798,36 |
| dövr ərzində daxil olmuşdur | 16 948,36 | - | 16 948,36 |
| dövr ərzində xaric olmuşdur | 16 948,36 | - | 16 948,36 |
| dövrün sonuna | 6 798,36 | - | 6 798,36 |

### № 21 Üzvlük haqqı

| | Cəmi |
|---|---|
| əvvəlki hesabat dövrü üzrə | 31 387 949,71 |
| cari hesabat dövrü üzrə | 33 936 224,82 |

### № 22 İanə

| | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | pul şəklində | natura formada |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | |
| dövr ərzində daxil olmuşdur | - | - | - |
| dövr ərzində geri qaytarılmışdır | - | - | - |
| *Cari hesabat dövrü üzrə* | | | |
| dövr ərzində daxil olmuşdur | 16 804,02 | 14000,00 | 2804,02 |
| dövr ərzində geri qaytarılmışdır | - | - | - |

**Hesabat dövrü üzrə daxil olmuş ianələr barədə məlumat**

| № | ianənin tarixi | İanə vermiş şəxsin soyadı, adı, atasının adı | ünvanı | şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi | ianənin forması | ianənin məbləği |
|---|---|---|---|---|---|---|
| 1. | 13.02.2025 | İbrahimov Rafiq Oqtay oğlu | Bakı şəh. Suraxanı ray., Y/Günəşli qəs, D Y/S, ev.12,m.52 | AZE№17082254 | pul şəklində | 14 000,00 |
| 2. | 14.02.2025 | Abdurəhmanzadə Afiq Akif oğlu | Şəki şəhəri, Bağbanlar küç 10/17 | AA5335195 | natura şəklində | 424,02 |
| 3. | 15.10.2025 | Fəttayeva Nərgiz Mirsadıx qızı | Yevlax şəhəri, Qasım bəy Zakir küç. 33A | AA0483463 | natura şəklində | 2 380,00 |

## № 23 Dövlət maliyyə yardımı

| | Cari hesabat dövrü üzrə | Əvvəlki hesabat dövrü üzrə |
|---|---|---|
| Milli Məclisdə təmsil olunan siyasi partiyalar arasında bərabər bölünmüş vəsaitlər üzrə | 1 156 614,90 | 1 012 861,87 |
| Milli Məclisdə partiyadan seçilmiş deputatların sayına görə ayrılan vəsaitlər üzrə | 1 632 000,00 | 1 370 000,00 |
| “Yeni Azərbaycan” qəzetinə AR-nın Medianın İnkişafı Agentliyi tərəfindən ayrılan vəsaitlər üzrə | 216 000,00 | 216 000,00 |
| **Cəmi** | **3 004 614,90** | **2 598 861,87** |

## № 24 Çap mediasının təsis edilməsindən, o cümlədən çap mediasının iştirakçısı olmaqdan əldə edilən gəlir

| | Cəmi |
|---|---|
| əvvəlki hesabat dövrü üzrə | 501 414,34 |
| cari hesabat dövrü üzrə | 470 987,93 |

## № 25 İctimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat materiallarının hazırlanması və satışından gəlir

Partiyanın cari hesabat ilində ictimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat materiallarının hazırlanması və satışından gəlir üzrə əməliyyatı olmamışdır.

## № 26 Mülki hüquq müqavilələri üzrə, o cümlədən əmlakından istifadə və onun satılmasından əldə edilən gəlir

| | Cəmi | o cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | investisiya mülkiyyətinin satışından xalis gəlir | digər uzunmüddətli aktivlərin satışından xalis gəlir | daşınmaz əmlaklar üzrə icarə haqlarından gəlir | daşınar əmlaklar üzrə icarə haqlarından gəlir |
| əvvəlki hesabat dövrü üzrə | 25 140,00 | - | - | 25 140,00 | - |
| - *satılmış uzunmüddətli aktivlərin satış qiyməti* | - | - | - | - | - |
| - *satılmış uzunmüddətli aktivlərin qalıq dəyəri* | - | - | - | - | - |
| cari hesabat dövrü üzrə | 9 926 058,00 | - | 9 903 178,00 | 22 880,00 | - |
| - *satılmış uzunmüddətli aktivlərin satış qiyməti* | *12 021 700,00* | - | *12 021 700,00* | - | - |
| - *satılmış uzunmüddətli aktivlərin qalıq dəyəri* | *2 118 522,00* | - | *2 118 522,00* | - | - |

## № 27 Hüquq varisliyi və ya vərəsəlik (miras aktivi) yolu ilə əldə edilmiş əmlak

Partiyanın cari hesabat ilində hüquq varisliyi və ya vərəsəlik (miras aktivi) yolu ilə əldə edilmiş əmlak üzrə əməliyyatı olmamışdır.

## № 28 Qanunla qadağan olunmayan digər gəlirlər

| Digər gəlirlərin adı | Cari hesabat dövrü üzrə | Əvvəlki hesabat dövrü üzrə |
|---|---|---|
| Seçki kampaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait | - | 487 000,00 |
| Aktivlərin inventarizasiyası zamanı uçotdan kənar qalmış aktivlərin dəyəri | 121,38 | - |
| Sığorta təşkilatlarının ödəncləri | 6 100,00 | - |
| Sair gəlirlər | 117 838,88 | 8 725,88 |
| **Cəmi** | **124 060,26** | **495 725,88** |

## Seçki kampaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait barədə məlumat

| | Cəmi | o cümlədən | | |
|---|---|---|---|---|
| | | pul şəklində | natura şəklində | göstərilmiş xidmət şəklində |
| *Əvvəlki hesabat dövrü üzrə* | | | | |
| dövr ərzində daxil olmuşdur | - | 487 000,00 | - | - |
| ianəçilərə geri qaytarılmışdır | - | - | - | - |
| dövlət və bələdiyyə büdcəsinə köçürülmüşdür | - | 350,55 | - | - |
| *Cari hesabat dövrü üzrə* | | | | |
| dövr ərzində daxil olmuşdur | - | - | - | - |
| ianəçilərə geri qaytarılmışdır | - | - | - | - |
| dövlət və bələdiyyə büdcəsinə köçürülmüşdür | - | - | - | - |

## № 29 Cari işlərə sərf olunan vəsait

| | Cari hesabat dövrü üzrə | Əvvəlki hesabat dövrü üzrə |
|---|---|---|
| ezamiyyə məsrəfləri | 171 046,61 | 159 829,03 |
| sərf edilmiş və müvafiq qaydada uçotdan silinmiş ehtiyatlar (dəftərxana və təsərrüfat ehtiyatları, yanacaq və sürtkü materialları istisna olmaqla) üzrə məsrəflər | 79 194,16 | 74 523,41 |
| nəqliyyat vasitələrinin təmiri üzrə məsrəflər | 104 872,19 | 53 903,99 |
| tikililərin təmiri üzrə məsrəflər | 718 921,03 | 140 399,15 |
| avadanlıqların təmiri üzrə məsrəflər | 38 474,59 | 85 393,09 |
| tədbirlərin təşkili üzrə məsrəflər | 1 410 649,06 | 814 065,56 |
| silinmiş uzunmüddətli aktivlərin qalıq dəyərləri | 411 489,74 | 14 583,37 |
| uzunmüddətli aktivlərin satışı üzrə xalis zərərlər | - | - |
| gəlirlərlə bağlı olan mütəmadi xarakter daşımayan digər məsrəflər | 152 118,83 | 104 446,39 |
| yuxarıda qeyd olunan xərclərin ödənilməsi ilə bağlı yaranan bank xidməti xərcləri | 6 739,99 | 4 714,13 |
| **Cəmi** | **3 093 506,20** | **1 451 858,12** |

## № 30 Siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər

| | Cari hesabat dövrü üzrə | Əvvəlki hesabat dövrü üzrə |
|---|---|---|
| hesablanmış əməkhaqqı | 14 040 053,10 | 13 733 415,31 |
| əməkhaqqlarına görə ayırmalar (sığortaedənin vəsaiti hesabına ödənilən) *o cümlədən,* | 2 577 888,87 | 2 535 818,43 |
| *- məcburi dövlət sosial sığorta haqqı* | *2 226 686,09* | *2 194 808,56* |
| *- icbari tibbi sığorta* | *281 027,58* | *272 832,47* |
| *- işsizlikdən sığorta* | *70 175,20* | *68 177,40* |
| Kommunal *o cümlədən,* | 331 130,82 | 314 296,32 |
| *- elektrik enerjisi* | *170 646,77* | *166 021,89* |
| *- qaz* | *114 585,31* | *104 625,72* |
| *- su və kanalizasiya* | *19 098,08* | *18 805,92* |
| *- istilik enerjisi* | *1 744,25* | *2 653,64* |
| *- tullantıların daşınması* | *4 524,79* | *3 489,15* |
| *- digər (tüstü bacalarının təmizlənməsi, çamaşırların yuyulması və s.)* | *20 531,62* | *18 700,00* |
| rabitə *o cümlədən,* | 130 490,19 | 140 305,91 |
| *- internet xidməti* | *77 691,41* | *77 383,68* |
| *- ölkədaxili telefon danışıqları* | *25 772,92* | *38 365,23* |
| *- ölkəxarici telefon danışıqları* | - | - |
| *- poçt xidməti* | *17 182,72* | *15 499,71* |
| *- digər (rabitə xətlərinin icarəsi və s.)* | *9 842,14* | *9 057,29* |
| mühafizə xidməti | 275 537,36 | 233 910,69 |

| | | |
|---|---|---|
| proqram təminatlarına xidmət | 4 130,00 | 3 832,00 |
| sərf edilmiş və müvafiq qaydada uçotdan silinmiş dəftərxana və təsərrüfat ehtiyatları üzrə məsrəflər | 275 950,57 | 202 983,24 |
| istifadə edilmiş yanacaq və sürtkü materialları üzrə məsrəflər | 397 365,19 | 456 436,25 |
| icarə üzrə məsrəflər | 65 296,50 | 3 928,38 |
| icbari sığorta<br>*o cümlədən,* | 97 163,27 | 70 150,12 |
| *- istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta* | *30 328,43* | *27 715,81* |
| *- nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası* | *10 292,38* | *9 751,17* |
| *- qanunvericiliklə müəyyən edilmiş digər icbari sığortalar (adları göstərilməklə)* | *56 542,46* | *32 683,14* |
| informasiya xidmətləri<br>*o cümlədən,* | 58 476,13 | 40 042,00 |
| *- saytın saxlanılması (texniki və funksional dəstək, domen, hosting və s. bu kimi xərclər)* | *23 926,13* | *14 692,00* |
| *- sosial şəbəkələrin idarə olunması* | - | - |
| *- digər informasiya xidmətləri (xəbərlərin, press-relizlərin və digər məlumatların yayılması və s.)* | *34 550,00* | *25 350,00* |
| tikili və avadanlıqların saxlanılması və onlara texniki xidmət (liftlərə texniki xidmət, soyutma və isitmə sistemlərinə, su qızdırıcı qazanlara, nəzarət-buraxılış sistemlərinə, generatorlara, ofis texnikalarına xidmət, texniki baxış) | 48 884,96 | 35 639,41 |
| uzunmüddətli aktivlərin amortizasiyası | 1 512 424,40 | 1 455 577,73 |
| gəlirlərlə bağlı olan mütəmadi xarakter daşıyan digər məsrəflər | 164 629,46 | 154 128,14 |
| yuxarıda qeyd olunan xərclərin ödənilməsi ilə bağlı yaranan bank xidməti xərcləri | 119 230,34 | 115 421,73 |
| **Cəmi** | **20 098 651,16** | **19 495 885,66** |

## № 31 İctimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər

| | Cari hesabat dövrü üzrə | Əvvəlki hesabat dövrü üzrə |
|---|---|---|
| namizədlərin irəli sürülməsinin müdafiəsi, referendum üzrə təşviqat qrupunda üzvlüyə razılıq verilməsi üçün imzaların toplanmasına yönəlmiş təşkilati-texniki tədbirlərin maliyyə təminatı | - | - |
| seçici imzalarının toplanması üçün müvafiq şəxslərin haqqının ödənilməsi | - | - |
| seçkiqabağı təşviqatla bağlı işlərin dəyərinin ödənilməsi | 126 000,00 | 673 510,50 |
| informasiya və məşvərət xidmətlərinin dəyərinin ödənilməsi | - | - |
| seçki kampaniyasının keçirilməsi ilə əlaqədar hüquqi şəxslərin və vətəndaşların bilavasitə yerinə yetirdikləri digər işlərin dəyərinin ödənilməsi ilə bağlı xərclər | - | - |
| yuxarıda qeyd olunan xərclərin ödənilməsi ilə bağlı yaranan bank xidməti xərcləri | - | 1 769,20 |
| **Cəmi** | **126 000,00** | **675 279,70** |

## № 32 Yerli (aşağı) təşkilatlara ödənişlər

| **Təşkilatın adı** | Cari hesabat dövrü üzrə | Əvvəlki hesabat dövrü üzrə |
|---|---|---|
| YAP Naftalan şəhər təşkilatı | 65 000,00 | - |
| YAP Daşkəsən rayon təşkilatı | 50 000,00 | 20 000,00 |
| YAP Samux rayon təşkilatı | 115 000,00 | - |
| YAP Qobustan rayon təşkilatı | 30 000,00 | 30 000,00 |
| YAP Yardımlı rayon təşkilatı | 70 000,00 | 55 000,00 |

| | | |
|---|---|---|
| YAP Cəbrayıl rayon təşkilatı | 15 000,00 | - |
| YAP Xocalı rayon təşkilatı | 105 000,00 | 95 000,00 |
| YAP Xocavənd rayon təşkilatı | 90 000,00 | 80 000,00 |
| YAP Zəngilan rayon təşkilatı | 55 000,00 | 40 000,00 |
| YAP Qubadlı rayon təşkilatı | 10 000,00 | - |
| YAP Şuşa rayon təşkilatı | 90 000,00 | 50 000,00 |
| YAP Siyəzən rayon təşkilatı | 110 000,00 | - |
| YAP Xızı rayon təşkilatı | 130 000,00 | 105 000,00 |
| **cəmi:** | **935 000,00** | **475 000,00** |

Partiyanın uçot siyasətinin 9.2.2 maddəsinə əsasən yerli təşkilatlara Mərkəzi Aparat tərəfindən ödənilmiş 935 000,00 manat məbləğ "Maliyyə fəaliyyətinin nəticələri haqqında" yekun hesabatda (2 nömrəli Forma) xərclər üzrə "yerli (aşağı) təşkilatlara ödənişlər" maddəsindən çıxarılmış, bununla bağlı çəkilən bank xidməti xərcləri isə sair xərclərə aid edilmişdir.

## № 33 Kreditlər üzrə faizlər

Partiyanın cari hesabat ilində kreditlər üzrə faizlərə dair əməliyyatı olmamışdır.

## № 34 Fərdi xərclər

| | Cari hesabat dövrü üzrə | Əvvəlki hesabat dövrü üzrə |
|---|---|---|
| nümayəndələrin (qonaqların) rəsmi qəbulu zamanı nahar, şam və çay süfrəsi üzrə xərclər; | 200 811,66 | 127 919,89 |
| nümayəndələrin (qonaqların) mehmanxanalarda yerləşdirilməsi ilə bağlı xərclər | 277 426,04 | 115 583,50 |
| nümayəndələrin (qonaqların) nəqliyyat xərcləri | 23 385,00 | 11 100,00 |
| nümayəndələrin (qonaqların) qəbulu ilə bağlı tərcüməçilərin haqqının ödənilməsi | - | - |
| nümayəndələrin (qonaqların) ezamiyyə xərcləri | - | - |
| yuxarıda qeyd olunan xərclərin ödənilməsi ilə bağlı yaranan bank xidməti xərcləri | 488,78 | 551,17 |
| **Cəmi** | **502 111,48** | **255 154,56** |

## № 35 Sair xərclər

| | Cari hesabat dövrü üzrə | Əvvəlki hesabat dövrü üzrə |
|---|---|---|
| Əməkdaşlar üzrə mükafatlandırmalar və maddi yardımlar<br>*o cümlədən,* | 3 426 146,22 | 2 311 961,18 |
| *- hesablanmış fərdi mükafatlar* | - | - |
| *- hesablanmış kollektiv mükafatlar* | *3 426 146,22* | *2 311 961,18* |
| *- hesablanmış maddi yardımlar* | - | - |
| mükafatlandırma və maddi yardımlara görə ayırmalar (sığortaedənin vəsaiti hesabına ödənilən)<br>*o cümlədən,* | 602 645,32 | 408 277,52 |
| *- məcburi dövlət sosial sığorta haqqı* | *517 072,48* | *350 478,97* |
| *- icbari tibbi sığorta* | *68 500,67* | *46 239,22* |

| | | |
|---|---|---|
| *- işsizlikdən sığorta* | *17 072,17* | *11 559,33* |
| digər şəxslər üzrə mükafatlandırmalar (natura formada olan mükafatların da dəyəri daxil olmaqla) | 198 415,47 | 91 665,86 |
| digər şəxslər üzrə maddi yardımlar (natura formada olan mükafatların da dəyəri daxil olmaqla) | - | 900,00 |
| qanunvericiliklə müəyyən olunmuş köçürmələr istisna olmaqla müxtəlif fondlara dəstək məqsədli köçürmələr (fondların adları və ödənişlər ayrıca sətirdə qeyd edilməklə)<br>*o cümlədən,* | - | - |
| -... | - | - |
| sponsorluq töhfələri | - | - |
| xeyriyyəçilik fəaliyyəti ilə bağlı xərclər | - | - |
| verilmiş hədiyyələr | 15 355,96 | 5 810,05 |
| təqaüdlər | 13 450,00 | 16 650,00 |
| digər xərclər | 10 899,97 | 65 502,80 |
| yerli təşkilatların Mərkəzi Aparata ödənişləri | - | - |
| yuxarıda qeyd olunan xərclərin ödənilməsi və partiyadaxili köçürmələr ilə bağlı yaranan bank xidməti xərcləri | 25 095,43 | 16 386,17 |
| **Cəmi** | **4 292 008,37** | **2 917 153,58** |

**Maliyyə-təsərrüfat şöbəsinin müdiri** **Allahverdiyev E. H.**

**Mühasib** **Carçıyev E. M.**